**Abıyeva N.M.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.65.12-23**
**UOT: 347**

## Qeyri-müəyyən şəxslərin doktrinal anlayışının bəzi məsələləri

**Xülasə**: "Qeyri-müəyyən şəxslər" ifadəsinin qanunvericilik anlayışı olmasa da, huquq nəzəriyyəsində bu istilaha anlayşların verilməsi istiqamətində müəyyən cəhdlər edilmişdir. Qeyri-müəyyən şəxslərin hüquqlarının müdafiəsi altında, adətən, fiziki şəxslərin, hüquqi şəxslərin və onların qrup və ya birliklərinin ümumi mənafelərinin müdafiəsi başa düşülür. Qrup üzvlərinin dəqiq sayı müəyyən edildikdə məhkəmə müdafiəsi mexanizmlərinin şərtləri dəyişmiş olur.

Qeyri-müəyyən şəxslər dairəsinin müdafiəsində aşağıdakı üç məqam prinsipial əhəmiyyət kəsb edir: 1) müdafiəsindən ötrü müraciət olunan obyekt ictimai və ya dövlət mənafeyidir; 2) müdafiəsindən ötrü müraciət olunan obyektin tərkib dairəsi qeyri-müəyyən sayda olsa da, tələbin irəli sürüldüyü cavavdeh tərəfin tərkibi vahiddir; 3) məhkəmə bu iddia tələblərini təmin etdikdə qeyri-müəyyən şəxslərin dairəsini təmsil edən şəxslər fərdi şəkildə, müstəqil surətdə iddia vermək yolu ilə müvafiq kompensasiya ödənişlərini almaq imkanını əldə edirlər.

Qeyri-müəyyən şəxslərin dairəsinin hüquqlarının müdafiəsi ilə bağlı aşagıdakı amilləri də nəzərə almaq lazımdır:

1) mübahisənin predmeti (fəaliyyətin xarakterinə görə huquq və qanuni mənafeyə qəsd etmə hüquqazidd əməlin hər iki forması ilə, yəni həm hüquqazidd hərəkət, həm də hüquqazidd hərəkətsizliklə edilə bilər);

2) hüququn müdafiəsi üsulu (hansı növ iddialar – qanunsuz fəaliyyəti dayandıran, huququ və ya onun pozulmasını tanıyan, öhdəlik müəyyən edən və s. növ iddialar mümkündür);

3) müdafiə olunan şəxslərin dairəsi (istehlakçılar ilə yanaşı, digərlərinin, məsələn, pensiyaçıların, müəssisədə işləyənlərin və s. kateqoriya şəxslərin hüquqları müdafiə edilə bilər).

Qeyri-müəyyən şəxslərin dairəsinin hüquqlarının müdafiəsi ilə bağlı işlərə baxan məhkəmənin vəzifəsinə konkret şəxsin və ya müəssisənin (təşkilatın) deyil, miqdar əlamətinin obyektiv olaraq müəyyən edilməsi qeyri mümkün olan əhali qrupunun eyni cinsli, hüquqi təbiətinə görə bir-birinə yaxın olan hüquq və ya qanuni mənafelərinin müdafiəsi daxil olur. Bu, təcrübədə özünü daha çox ətraf mühütin mühafizəsi, istehlakçılar arasında hər hansı məhsulun və ya xidmətin reklam edilməsi, müəyyən ərazidə sanitar-epidimoloji vəziyyət ilə bağlı informasiyanın təqdim edilməsi üzrə yaranan suallara cavabların istənilməsi və s. tələbləriin irəli sürülməsi şəklində göstərir.

**Açar sözlər**: qeyri-müəyyən şəxslər; doktrinal anlayış; hüquqların müdafiəsi; məhkəmə; prokuror; iddiaçı; preyudisiya.

Müasir dövrdə mülki-prosessual hüququ nəzəriyyəsində "qeyri-müəyyən şəxslər"in doktrinal anlayışının müəllifi Rusiya alimi N.S. Batayeva sayılır. N.S. Batayevanın fikrincə, qeyri-müəyyən şəxslərin dairəsi dedikdə, kəmiyyət baxımından müəyyən edilməsə də, iddianın predmetinin və əsasının ümumiliyi ilə birləşmiş bir və ya bir neçə cavabdehin əməli üzündən zərərçəkmiş olan

♦ **Abıyeva Nərmin Mirhəsən qızı** - Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dissertantı (Azərbaycan). E-mail: mahabbat_d.h.t@mail.ru

bütün şəxslərin prosesə cəlb edilməsi mümkün olmayan potensial iddiaçıların çoxsaylı tərkibi başa düşülür. Qeyri-müəyyən şəxslərin hüquqlarının müdafiəsinə yönələn iddialar eyni hüquqlara və faktlara əsaslanan, kəmiyyət baxımından sayı müəyyən edilməyən və bu səbəbdən iddiaçı qismində hamısının prosesə cəlb edilməsi mümkün olmayan şəxslərin mənafelərinin müdafiəsinə yönəlmişdir [5].

Qeyri-müəyyən şəxslərin hüquqlarının müdafiə obyekti kimi bu cür şərhi iddianın əsasının maddi-hüquqi xüsusiyyətləri meyarına uyğun olaraq onların müdafiəsini ictimai maraqların müdafiəsindən məhdudlaşdırmağa imkan verir. Prosessual aspektdə müdafiə hüququnun daşıyıcısı fərdi baxımdan müəyyən edilə bilinməyən iddiaçıların elə toplusudur ki, prosesi dairəsi qeyri-müəyyən olan bir qrup şəxsin hüquqlarını müdafiə etməyə yönəlmiş kimi təsnif etmək və formasını təyin etməyə ehtiyac olmur. Müəyyən qrupu təmsil edən çoxsaylı şəxslərin hüquq və qanuni mənafelərinin müdafiəsinə yönələn tələblərin ümumiliyi eyni bir cavabdehin olması, irəli sürülən tələblərin eyni məzmunlu olması, iddianın predmetinin və əsasının oxşarlığı, pozulmuş hüququn məhkəmədə müdafiəsi üsulunun ümumi olması kimi əlamətlər ilə xarakterizə olunur və mənafeyi naminə iddia qaldırılan şəxslərin sayından və ya şəxsiyyətindən asılı olmur [4, s. 98].

Q.O. Abolinin göstərmişdir ki, qeyri-müəyyən şəxslərin mənafeləri naminə verilən iddialarda şəxslərin dairəsinin məhkəmə üçün bəlli olmaması mənasında qeyri-müəyyənliyi, iddianın verildiyi və məhkəmədə baxıldığı vaxtda şəxsiyyətin dəqiq müəyyən edilmədiyi situasiyalarda qrup tərəfindən verilən iddialar kimi xarakterizə olunur. İddia ərizəsi əsasında çoxsaylı və qeyri-müəyyən şəxslərə münasibətdə çıxarılmış məhkəmə qərarı publik xarakter daşıyır, qeyri-müəyyən şəxslər dairəsinə aid olanların sonrakı şəxsi iddialarını təqdim etmələri zamanı məhkəmə preyudisiyasını yaradır [2].

Biz müəllifin bu mövqeyində kifayət qədər həqiqət payının olduğunu qeyd edirik. Eyni zamanda bildiririk ki, müəllifin yanaşmasının preyudisiya hissəsi müəyyən qədər redaktə olunmalı, daha korrekt ifadə olunmalıdır. Belə ki, o, düzgün olaraq qeyd etmişdir ki, iddia işi üzrə qeyri-müəyyən şəxslərə münasibətdə çıxarılmış məhkəmə qərarının preyudisial əhəmiyyəti vardır. Preyudisiya, daha əvvəl baxılan iş üzrə sübutetmə predmetinə aid olan və qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə müəyyənləşdirilən halların bir daha sübuta yetirilməsi zərurətindən azad olunmanı nəzərdə tutur. Hesab edirik ki, qanuni qüvvəyə minmiş, ləğv edilməmiş qərar təhlil olunmadan, işin faktiki və hüquqi aspektlərini bir-birindən ayırmadan, yəni yalnız formal meyarlara görə preyudisial hesab edilə bilməz.

Qanuni qüvvəyə minmiş məhkəmə qərarının preyudisiallığı barəsində bu qərarın çıxarıldığı şəxslərin dairəsi ilə məhdudlaşdırılır və aşağıdakı şərtlərin mövcudluğu halında mümkün olur:

- konkret fakt bir iş üzrə məhkəmə prosesinin iştirakçısının iştirak etdiyi başqa bir iş üzrə çıxarılmış və qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə müəyyən edilmiş olmalıdır;
- bu fakt hər iki iş üzrə sübutetmə predmetinə aid olmalıdır;
- hər iki işdə şəxsin hüquqi statusu eyni olmalıdır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun hüquqi mövqeyinə görə, preyudisiya institutu məhkəmə aktlarına yenidən baxılmasının qarşısının alınmasına, məhkəmə təcrübəsində eyniliyin, sabitliyin və hüquqi müəyyənliyin təmin edilməsinə yönəlmişdir. Preyudisiallığı tənzim edən normalar sübutetmə prosesini sadələşdirməyə, işlərə baxılma müddətinin qısaldılmasına, məhkəmələrin, eləcə də məhkəmə prosesi iştirakçılarının vəsaitinə qənaət edilməsinə yönəlmişdir. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142.1-ci maddəsinə əsasən, cinayət təqibi üzrə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü cinayət təqibi

üzrə icraatda həm müəyyən olunmuş hallara, həm də onların hüquqi qiymətinə görə təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə üçün məcburidir. Həmin Məcəllənin 142.2-ci maddəsinə müvafiq olaraq, mülki iş, inzibati və ya iqtisadi mübahisə üzrə qanuni qüvvəyə minmiş məhkəmənin qərarı cinayət işi üzrə icraatda təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəməyə yalnız hadisənin, yaxud hərəkətin olub-olmaması hissəsində məcburidir və təqsirləndirilən şəxsin təqsirli olub-olmaması nəticəsini əvvəlcədən həll etmir.

Göründüyü kimi, qanunverici cinayət prosesində sahədaxili (Cinayət-Prosessual Məcəlləsinin 142.1-ci maddəsi) və sahələrarası preyudisiyanı (Cinayət-Prosessual Məcəlləsinin 142.2-ci maddəsi) ayırmış və onları müxtəlif cür müəyyənləşdirmişdir. Belə ki, cinayət prosesində sahədaxili preyudisiyanın tətbiqi zamanı qüvvəyə minmiş məhkəmə hökmündə müəyyən olunan hallar və onların hüquqi qiyməti sonrakı cinayət işləri üzrə icraatda məcburi olduğu halda, sahələrarası preyudisiyaya görə mülki, inzibati və ya iqtisadi işlər üzrə qanuni qüvvəyə minmiş qərarlar yalnız hadisənin, yaxud hərəkətin olub-olmaması hissəsində məcburidir [1].

V.M. Juykovun fikrincə, qeyri-müəyyən şəxslər dairəsi - fərdiləşdirilə (konkret müəyyən edilə) bilinməyən, iddiaçı qismində prosesə cəlb edilməsi, qərarda onların hər birinin adının, hüquq və vəzifələrinin göstərilməsi mümkün olmayan şəxslərin dairəsidir [8, s. 2].

Potensial iddiaçıların fərdiləşdirilməsi, yəni müəyyən edilməsi aşağıdakı amillərin nəzərə alınmasını vacib edir:

- zaman amili: bunu nə iddianın verildiyi, nə işə baxıldığı, nə işə baxılmasından sonra, nə də heç bir zaman müəyyən etmək mümkün olmur;
- şəxslərin miqdar sayı: iddiaçı potensial iddiaçıların sayının müəyyən edilməməsinin qeyri-mümkünlüyünü, yaxud bunu müəyyən etməyin lazım olmadığını sübuta yetirməlidir;
- məkan, yəni qeyri-müəyyənliyin miqyası: Pozulmuş hüquq bir müəssisəni, bir rayonu, bir əyaləti, yaxud bütün ölkəni əhatə edir [6, s. 94].

Qeyd edilən iddialar ilə məhkəmə orqanlarında əhalinin, xeyli sayda insanın və ya bir qrup şəxsin müəyyən nemətlərdən istifadə hüququ müdafiə altına alınır. Bir qrup şəxsin qeyri-müəyyənliyi məhkəmə üçün yalnız o anlamda əhəmiyyət kəsb edir ki, onların şəxsiyyətlərinin müəyyən edilməsinə və məhkəmə proseslərinə cəlb edilməsinə zərurət olmayan iddiaçıların hüquqlarının pozulması ilə bağlı olan iddiaya baxır və hər bir iddiaçının maddi-hüquqi tələblərini fərdiləşdirmədən cavabdehin qanunsuz fəaliyyətinin qarşısı alınır. Bir iddia ilə çox sayda insanın pozulmuş hüququnun müdafiə imkanı yaranır, maraqları qorunan xeyli şəxsin imkan və vaxtına qənaət edilir, pozulmuş hüquqlarının müdafiəsi təmin olunur.

O.A. Buxtoyarovanın fikrincə, "qeyri-müəyyən şəxslər dairəsi" terminindən çox zaman normativ-hüquqi aktların, vəzifəli şəxslərin, publik ofertanın, publik müqavilənin xarakteristikasında istifadə edildiyindən, elmi dairədə bu ifadənin "hamıya dərhal və hər kəsə ayrılıqda müraciət" kimi anlamı formalaşmışdır. Müəllif həmçinin qeyd etmişdir ki, "qeyri-müəyyən şəxslər dairəsi" ifadəsinin hüquqi mahiyyəti müəyyən edilməsi mümkün olmayan xeyli sayda insanın hüquqlarının pozulmasının sübut edilməsində ifadə olunmur, daha çox belə bir iddia ilə vətəndaşların hüquqlarının kütləvi şəkildə pozulmasının və konkret hüquqların pozulmasının qarşısının alınmasında ifadə olunur. Başqa sözlə, "qeyri-müəyyən şəxslərin dairəsi" termininin istifadə edilməsində əsas məqsəd heç də xeyli sayda insanın hüquqlarının pozulmasının sübuta yetirilməsi deyil, bu iddia ilə vətəndaşların hüquqlarının kütləvi şəkildə pozulmasına yol verməmək və konkret hüquqlarının pozulmasının qarşısını almaqdır. Qeyri-müəyyən şəxslərin müdafiəsi ilə bağlı məhkəmə iddialarının başlıca vəzifəsi, hüquqi təyinatı pozulmuş hüququn, böyük insan

qrupunun gələcəkdə real və çevik müdafiəsini təmin etməkdir. Bir qrup şəxsin qeyri-müəyyənliyi məhkəmə üçün o baxımdan vacibdir ki, potensial iddiaçıların hüquqlarının pozulması onların müəyyən edilməsinə və prosesə cəlb edilməsinə ehtiyac olmadan nəzərə alınır, iş üzrə hər bir iddiaçı fərdiləşdirilmədən cavabdehin qanunsuz fəaliyyətinə son qoyulur. Məhkəmə üçün vacib olan bu qrupun tərkibinin dəyişkən olmasıdır. Beləliklə, qeyri-müəyyən şəxslərin dairəsinin mənafelərinin müdafiəsi üçün verilmiş iddianın baxılıb həll olunmasının hüquqi nəticəsi həm cari, həm də gələcəkdə pozulmuş hüququnun müdafiəsinin təminatı olacaq [6, s. 95].

Ümumiyyətlə, O.A.Buxtoyarova hesab etmişdir ki, qeyri-müəyyən şəxslər dairəsinin müdafiəsi prosesinin əsas fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, müdafiənin predmeti ayrı-ayrı şəxslərin ümumi maraqlarıdır, işin həlli üçün isə onların ümumi sayının müəyyən edilməsi tələb olunmur. Əslində, bu cür yanaşma ilə qeyri-müəyyən şəxslərin müdafiəsi mülki prosesdə ictimai mənafelərin müdafiəsi üçün prokurorun verdiyi iddialar eyniləşdirilir.

Mülki prosesdə prokurorun iştirakı institutu çərçivəsində ilk vaxtlarda qeyri-müəyyən şəxslərin hüquqlarının müdafiəsi məsələləri araşdırılıb. Prokuror tərəfindən qeyri-müəyyən şəxslərin maraqlarından ötrü verilən iddia ictimai maraq doğuran, maddi hüquq münasibətləri subyektinin (konkret iddiaçının) olmadığı hal kimi müəyyən edilir. Bu cür işlərdə prokurorun mübahisənin məhkəmədənkənar həlli proseduruna əməl etməsi tələbi nəzərdə tutulmamışdır. O, tərəf olmadığından maddi hüquq üzrə sərəncam vermək, barışıq müqaviləsi bağlaya bağlamaq səlahiyyətinə malik deyil, eyni əsaslarla, prokurora qarşı da iddia irəli sürülə bilməz. Habuki cavabdeh maraqları naminə iş başlanmış şəxsə qarşı əks iddia qaldıra bilər. Bu cür yanaşmada hüquqi müdafiə obyekti kimi ictimai mənafe ilə qeyri-müəyyən şəxslərin mənafeləri bir-biri ilə eyniləşdirilir.

Y.M. Artamonova hesab etmişdir ki, prokuror qeyri-müəyyən şəxslərin hüquq və qanuni mənafelərinin müdafiəsində prosessual iddiaçı qismində çıxış etməklə, təkcə ictimai mənafeyi deyil, həm də konkret zərərçəkmiş şəxslərin mənafeyini müdafiə edir. Müəllif həmçinin qeyd edir ki, məhkəməyə müraciət etmək hüququ şəxslərin hüquqlarının pozulmasının sübut edilməsinin mümkün olduğu andan yaranır, lakin maddi iddiaçılar qrupunun kəmiyyət tərkibini sübut etməyə və ya aydınlaşdırmağa ehtiyac olmur və bu, həmişə mümkün də olmur [3, s. 3]. Əlbəttə, hər bir konkret iş üzrə qorunan maraq müstəsna olaraq ictimai maraq ola bilməz, nəzərə almaq vacibdir ki, maraqlı şəxslərin şəxsi hüquqları da məhkəmə müdafiəsinin obyektinə daxildir. Görünür, prokurorun mülki prosesdə fəaliyyəti prosesin indiki inkişaf mərhələsində qeyri-müəyyən şəxslərin hüquqlarının müdafiəsi fəaliyyətinin bəzi xüsusiyyətlərinə malikdir. Çünki məhkəməyə müraciət etmək hüququ prokurorun mübahisə etdiyi hüquqların pozulması ilə bağlı olan, ictimai-hüquqi əhəmiyyət kəsb edən işlərlə kifayət qədər möhkəm şəkildə bağlıdır.

İddiaçı bu növ işlər üzrə mübahisənin predmetini təşkil edən pozulmuş və ya pozula biləcək hüququn xeyli sayda insanın mənafeyi ilə bağlı olduğunu sübuta yetirməlidir. Hüquqları müdafiə olunan əhali qrupuna daxil olan tərkib fərdi baxımdan dəyişkən olmalıdır. Məsələn, məktəbdə oxuyan şagirdlər, universitetdə təhsil alan tələbələr, hər hansı xidmətin istehlakçıları və s. Prosessual iddiaçı tərəfindən iddia qaldırılan vaxt və ya məhkəmə müvafiq iddia işi üzrə qərar qəbul edənədək cavabdeh qeyri-müəyyən dairəyə aid olan şəxslər kimi təqdim olunan bir qrup insanı fərdi şəkildə müəyyən edə və ya sayını dəqiq göstərə bilər. Məhkəmədən ötrü bunun heç bir əhəmiyyəti yoxdur, əhəmiyyətli olan odur ki, hüquqlarının müdafiəsi aparılan qrupun tərkibi sabit olmasın, say baxımından və fərdi olaraq dəyişkən olsun. Başqa sözlə, iş üzrə potensial iddiaçıların son tərkibini

müəyyən etmək mümkün olmasın. Potensial iddiaçıların dairəsinin müəyyən edilməməsi və ya buna ehtiyacın olmaması məhz bu kontekstdə anlaşılmalıdır.

Rusiya Federasiyası Ali Məhkəməsinin 2004-cü ilin I rübü üzrə icmalında göstərilmişdir ki, qeyri-müəyyən şəxslərin dairəsi dedikdə, iddiaçıların fərdiləşdirilməsi, iddiaçı qismində prosesə cəlb edilməsi, qətnamədə göstərilməsi, işin həllində onların hər birinin hüquq və vəzifələrinin müəyyən edilməsi mümkün olmayan şəxslər dairəsi başa düşülür [7, s. 27]. Ali Məhkəmənin bu mövqeyində, əlbəttə ki, müəyyən qeyri-dəqiqliyə yol verilmişdir. Belə ki, prosessual münasibətlərin əsas iştirakçılarından biri olan iddiaçı prosesə cəlb edilmir, iddiaçı özü müstəqil surətdə prosesə qoşulan tərəflərdən biridir. İşdə iştirak edən şəxslər qismində prosesə yalnız cavabdehlər və mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürməyən üçüncü şəxslər cəlb edilə bilər. Azərbaycan Respublikası MPM-nin 57.1-ci maddəsinə əsasən, mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürməyən üçüncü şəxslər qətnamə çıxarılana qədər, bu qətnamə tərəflərdən birinə münasibətdə onların hüquq və vəzifələrinə təsir edə biləcəyi təqdirdə, prosesdə iddiaçının və ya cavabdehin tərəfində iştirak edə bilərlər. Onlar işdə iştirak edən şəxslərin vəsatəti üzrə və ya məhkəmənin təşəbbüsü ilə işdə iştirak etməyə cəlb oluna bilərlər.

Rusiya Federasiyası Ali Məhkəməsi Plenumunun "İstehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı mübahisələrə dair mülki işlərə məhkəmələr tərəfindən baxılması haqqında" 28 iyun 2012-ci il tarixli 17 nömrəli qərarında qeyri-müəyyən şəxslər dairəsi fərdiləşdirilə bilinməyən, iddiaçı qismində prosesə cəlb edilməsi, qərarda və işin həllində onların hüquq və vəzifələrinin göstərilməsi mümkün olmayan şəxslərin dairəsi kimi müəyyən edilmişdir [12]. Lakin buna baxmayaraq Rusiya hüquq nəzəriyyəsində qeyd olunmuşdur ki, məhkəmələr hər bir konkret iş üzrə "qeyri-müəyyən şəxslər dairəsi" anlayışını özünəməxsus şəkildə şərh edir və çox zaman qeyri-müəyyən şəxslərin müdafiəsi üzrə verilmiş iddiaları təmin etməkdən imtina edirlər. Bunun, xüsusən, mənzil-kommunal təsərrüfatı, eləcə də əmək münasibətləri sahəsində mövcud olan pozuntular üzrə baş verdiyi göstərilir.

Rusiya məhkəmə təcrübəsində qeyri-müəyyən şəxslər dairəsinin pozulmuş hüquqlarının müdafiəsi ilə bağlı kifayət qədər materialın olması alimlərə bu sahədə müəyyən ümumiləşdirmələr aparmaq imkanını vermişdir. Həmin məhkəmə təcrübəsindən bəzi nümunələri diqqətə çatdıraq. "A" adlı Mənzil Kommunal Təsərrüfatı Müfəttişliyi qeyri-müəyyən şəxslərin hüquqlarının müdafiəsi məqsədi ilə kommunal xidmətlərin göstərilməsinin düzgün təmin edilməsi iddiası ilə "B" adlı məhdud məsuliyyətli cəmiyyəti məhkəməyə vermişdir. Müfəttişliyin qənaətinə görə, Rusiya Federasiyasının qanunvericiliyində "qeyri-müəyyən şəxslərin dairəsi"nin anlayışı yoxdur. "X" ünvanında yerləşən binanın sakinlərinin tərkibi isə ölüm və doğum halları və ya mənzillərin alqı-satqısı ilə əlaqədar dəyişə biləcəyindən, onun konkret dairəsini müəyyən etmək mümkün deyildir. "B" adlı məhdud məsuliyyətli cəmiyyətin hərəkətsizliyi nəticəsində isə yalnız binanın sakinlərinin deyil, həmçinin onun icarədarlarının, kirayədə yaşayanların hüquqları pozula bilər. Məhkəmə iddia ərizəsində "B" adlı məhdud məsuliyyətli cəmiyyəti tərəfindən binanın sakinlərinə isti su üçün kommunal xidmətlər göstərməyin normativ səviyyəsinə riayət edilməsi tələbinin qoyulmasını, qeyri-müəyyən şəxslər dairəsinə daxil olan tərkibin isə fərdiləşdirilməsinin mümkün olduğunu əsas götürərək, iddia ərizəsini qəbul etməkdən imtina etmişdir.

X. rayonunun prokuroru qeyri-müəyyən şəxslərin dairəsinin maraqları naminə X rayon Səhiyyə İdarəsinə qarşı fabrikin işçiləri üçün uyğun iş şəraitinin təmin edilməsindən ötrü müvafiq təmir işlərinin aparılması öhdəliyinin qoyulmasını nəzərdə tutan qərarın qəbul edilməsi tələbi ilə iddia ərizəsi vermişdir. Məhkəmə mülki prosessual qanunvericilikdə qeyri-müəyyən şəxslərin

dairəsinin müəyyən edilməsi üçün heç bir meyarın göstərilmədiyini qeyd etməklə yanaşı, həmçinin göstərmişdir ki, prokurorun qeyri-müəyyən şəxslər kimi təqdim etdiyi şəxslərin dairəsinin tərkibini əslində fərdiləşdirmək mümkündür.

Başqa bir nümunə. R. şəhərinin prokuroru qeyri-müəyyən şəxslər dairəsinin maraqlarının müdafiəsi üçün R. şəhərinin Daxili İşlər İdarəsinə qarşı iddia qaldırmışdır. İddianın predmetini Daxili İşlər İdarəsinin müvəqqəti saxlama təcridxanasının mövcud qanunvericiliyin tələblərinə uyğunlaşdırılması ilə bağlı tələb təşkil etmişdir. Cavabdeh prokurorun belə bir iddia ilə məhkəməyə müraciət etmək hüququnun olmadığını göstərmişdir. Lakin məhkəmə onun arqumenti ilə razılaşmamış və hesab etmişdir ki, MST-da yerləşdirilən şəxslərin dairəsi daimi olaraq dəyişdiyi üçün prokuror tərəfindən qaldırılan iddia konkret şəxslərə deyil, hazırda burada saxlanılan, həmçinin saxlanılmayan bütün şəxslərə aiddir və bu tərkibin mütəmadi dəyişməsi səbəbindən onların dairəsini konkret müəyyən etmək mümkün deyildir. Məhkəmə bu amilləri nəzərə alaraq prokurorun qeyri-müəyyən şəxslər dairəsinin hüquqlarının müdafiəsi naminə qaldırdığı iddianı təmin etmişdir.

Ş. rayon prokurorluğu qeyri-müəyyən şəxslər dairəsinin maraqları naminə məhkəməyə iddia ərizəsi ilə müraciət edərək, "M" ümumtəhsil məktəbinin üzərinə elektrik şəbəkəsinin istismarında qanunsuzluğun qarşısının alınması öhdəliyinin qoyulmasını nəzərdə tutan qərarın çıxarılmasını xahiş etmişdir. Məhkəmə ərizəni qəbul etməkdən imtina edərək göstərmişdir ki, prokurorun maraqlarını müdafiə etdiyi şəxslərin dairəsinin fərdiləşdirilməsi mümkündür. Belə ki, bu şəxslərin dairəsinə şagirdlər, müəllimlər və digər məktəb işçiləri daxildir [9, s. 46-47].

Ədəbiyyatda Rusiya məhkəmə təcrübəsinin ümumiləşdirilməsi əsasında göstərilmişdir ki, hərbi komissarlıqda qeydiyyatda olan qeyri-müəyyən sayda pensiyaçıların ərzaq payına görə almalı olduqları pul kompensasiyasından ötrü prokuror tərəfindən qaldırılmış iddia tələbi məhkəmə tərəfindən təmin edilmişdir. Lakin rayon ərazisində qeyri-müəyyən sayda pensiyaçıların aldıqları pul məbləğlərinin indeksasiya edilməsi tələbi ilə prokurorun qaldırmış olduğu iddia tələbi məhkəmə tərəfindən, ərizənin qeyri-müəyyən şəxslər dairəsinin deyil, əmsal tətbiq edilməsi ilə pensiya alan və konkret dairəsi bəlli olan şəxslərin mənafeyi naminə verildiyi əsası ilə, rədd edilmişdir (halbuki birinci işdə rayon hərbi komissarlığında qeydiyyatda olan, yəni əslində dəqiq sayı məlum olan pensiyaçıların hüquqlarının müdafiəsindən söhbət getmişdir – N.A.). Digər bir iş "Rusiyaenerjiatom" Konserninin işçilərinin əmək hüquqlarının müdafiəsindən ötrü müəssisənin lokal hüquqi aktının qanunsuz hesab edilməsi üzrə qaldırılmış iddia ərizəsi qeyri-müəyyən şəxslərin deyil, konkret dairəsi bəlli olan şəxslərin müdafiəsinə yönəldiyi əsası ilə təmin edilməmişdir. Halbuki həmin konsern özünə minlərlə işçinin çalışdığı 20-dən artıq müəssisəni birləşdirmişdir [11, s. 28-30].

Yuxarıda qeyd olunan nümunələrdən göründüyü kimi, məhkəmə təcrübəsində qeyri-müəyyən şəxslər dairəsinin təfsirində vahid yanaşma yoxdur. Məhkəmələr bəzən bu tərkibin kəmiyyət göstəricisinin sabit olmadığını və hər an dəyişilə biləcəyini nəzərə almır, yaxud fərdiləşdirilməsi, şəxsiyyətlərinin müəyyən edilməsi mümkün olan şəxslər qeyri-müəyyən şəxslər kateqoriyasına daxil edilir və ya əksinə proses baş verir. Şübhəsiz, məhkəmə təcrübəsində bu cür vəziyyətin yaranmasının başlıca səbəbi qanunvericilikdə "qeyri-müəyyən şəxslər dairəsi"nin anlayışının verilməməsidir.

Qeyri-müəyyən dairəyə aid olan şəxslərin hüquqlarının müdafiəsi üzrə məhkəmə işlərinin ümumiləşdirilməsi bu iddialar üzrə bəzi xüsusiyyətlərin müəyyən edilməsinə imkan vermişdir:

1) böyük sayda insan qrupunun olması səbəbindən potensial iddiaçıların hamısının fərdi şəkildə müəyyən edilməsinin və prosesə cəlb edilməsinin mümkün olmaması və iddiaçının tərəfində yalnız prosessual iddiaçının iştirak etməsi;

2) prosessual iddiaçının məhkəməyədək həll proseduruna əməl etməmək hüququnun olması;

3) cavabdehin tərəfində həmişə hüququn fərdi olaraq müəyyən edilmiş subyektinin iştirak etməsi;

4) iddianın cavabdehin olduğu və ya yaşadığı yer üzrə məhkəməyə verilməsi;

5) müstəqil tələblər irəli sürən üçüncü şəxslərin bu işlərdə iştirak edə bilməməsi. Çünki bu halda onları potensial iddiaçıların sırasına daxil etmək lazım olardı. Müstəqil tələblər irəli sürməyən üçüncü şəxslər isə yalnız cavabdehin tərəfində iştirak edə bilərlər;

6) məhkəmə qərarı bütün potensial iddiaçılara, hətta işdə iştirak etməyənlərə də aid olur;

7) hər bir potensial iddiaçı üçün maddi-hüquqi tələbləri fərdiləşdirmədən ictimai mənafeyin müdafiəsi. Bu məhkəmə qərarının icra qaydası konkret vətəndaşlar və təşkilatlar tərəfindən dəymiş ziyana görə iddia qaldırılmasını nəzərdə tutur;

8) bu cür işlər üzrə məhkəmə qərarları ilə aşağıdakı hallar müəyyən edilir: qeyri-müəyyən şəxslər dairəsinin maraqlarını pozan əməllərin olub-olmaması; bu əməlin qanunsuz olub-olmaması; bu əməlin cavabdeh tərəfindən törədilib törədilməməsi. Bu suallara müsbət cavab verildiyi təqdirdə məhkəmə cavabdehin üzərinə qeyri-müəyyən şəxslərin dairəsinə daxil olan şəxslərin mənafelərinin pozulması ilə nəticələnən qanunsuz davranışını dayandırmaq və dəymiş ziyanı ödəmək vəzifəsini qoyur. Bundan əlavə, məhkəmə cavabdehin üzərinə, qəbul edilmiş qərarla qeyri-müəyyən şəxslər dairəsinə daxil olan potensial iddiaçıların tanış ola bilmələri üçün, onun kütləvi informasiya vasitələri və ya digər üsullar ilə yayılmasını təmin etmək öhdəliyini qoya bilər [12].

Rusiya Federasiyası Ali Məhkəməsi Plenumunun bu izahı yalnız istehlakçı hüquqlarının müdafiəsi ilə bağlı mübahisələrə dair işlərə aid olsa da, Q.L. Osokina hesab etmişdir ki, bunun qeyri-müəyyən dairəyə aid olan şəxslərin hüquqlarının qorunması ilə bağlı bütün işlərə aid edilməsi mümkündür. Lakin müəllif cavabdehin bu vəzifədən yayınmaq məqsədi ilə sui-istifadə etməməsi üçün, çəkilən xərcləri cavabdehin üzərinə qoymaqla, məhkəmənin özünün qəbul etmiş olduğu qərarını kütləvi informasiya vasitələrində dərc etməsini optimal variant hesab etmişdir [10].

Qeyri-müəyyən şəxslər dairəsinə aid olan subyektlərin mənafelərinin qorunması ilə bağlı mövzunu nəzərdən keçirərkən səlahiyyətli şəxslərin və ya orqanların belə bir iddia ilə çıxış edərkən, əsasən, hansı amillərə fikir vermədiklərini və ya səhvə yol verdiklərini qeyd etməmək düzgün olmazdı. Bu predmet üzrə iddia qaldırmaq səlahiyyətinə malik olan şəxslər və ya orqanlar məhkəməyə verdikləri iddia ərizələrində hüquq və mənafelərininin nədə ifadə olunduğunu, konkret hansı hüquqlarının pozulduğunu, hüquq və maraqlarının qorunmasını nəzərdə tutan qanuna və ya digər normativ hüquqi akta istinadı özündə əks etdirməlidir. Əgər iddiaçının iddia verilən anda və ya məhkəmədə işə baxılan vaxtda potensial iddiaçıların dairəsinin müəyyən edilməsinin qeyri-mümkünlüyünü sübut etməli olması mövqeyindən çıxış etsək, onda cavabdehin, hüquqları müdafiə olunan şəxslərin sayının hesablanmasının və müəyyən edilməsinin mümkün olması əsası ilə, iddiaya qarşı ciddi surətdə etiraz etmək imkanı yaranacaqdır (məsələn, deyilə bilər ki, müəssisədə işçilərin ştat sayı və ya rayon ərazisində yaşayanların sayı bəllidir və s.).

A.V. Kraynova müvafiq hüquqtətbiqetmə fəaliyyətinin təhlili əsasında göstərmişdir ki, qeyri-müəyyən şəxslər dairəsinə aid olan subyektlərin hüquq və mənafelərini müdafiəsi məqsədi ilə verilmiş iddialarda daha çox aşağıdakı səhvlərə yol verilir: 1) kifayət qədər sübutların təqdim olunmaması; 2) iddia tələbi əsaslarının dəqiq müəyyən edilməməsi; 3) pozuntuların aradan

qaldırılması üçün cavabdeh olan şəxslərin funksiyaları ilə öhdəliklərinin fərqləndirilməməsi və s. Müəllif bu sahədə mövcud problemlərin aradan qaldırılması məqsədi ilə Ali Məhkəmənin Plenumu tərəfindən müvafiq qərarın qəbul olunmasını və burada "qeyri-müəyyən şəxslər"ə anlayışın verilməsini təklif etmişdir. A.V. Kraynova yenə də təcrübə materiallarına əsaslanaraq göstərmişdir ki, qeyri-müəyyən dairə üzrə olan şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı iddialar, əsasən, prokurorlar tərəfindən irəli sürülür. Vətəndaşlar və ixtisaslaşmış ictimai təşkilatlar tərəfindən bu cür iddiaların verilməsinə çox az hallarda rast gəlinir. Vəziyyətin bu şəkildə olması səbəblərindən biri həmin müraciətlərin hüquqi əsaslarının, rəsmiləşdirilməsi qaydalarının və məzmuna dair tələblərin ətraflı tənzimlənməməsi hesab edilə bilər. Buna görə də qeyri-müəyyən sayda insanların hüquqlarının müdafiəsi ilə bağlı iddia qaldırmaq hüququnun həyata keçirilməsi mexanizminin yaradılmasından ötrü Ali Məhkəmənin Plenumu tərəfindən qəbul edilə biləcək müvafiq qərarda həmin tövsiyələrin öz əksini tapmasını təklif etmişdir [9, s. 49].

Qeyri-müəyyən şəxslərin dairəsinin mənafeləri naminə verilən iddiaları xarakterizə edən əlamətlərdən biri kimi həmçinin onun kütləviliyi qeyd olunmuşdur [6, s. 95]. Biz bu mövqe ilə razı deyilik və hesab edirik ki, kütləvilik əlaməti iddialara aid deyil, iddia ilə müdafiə olunan insanların sayına xasdır. Amma bu da inkar oluna bilməz ki, eyni predmet və eyni əsas üzrə digər iddiaların da qaldırılması mümkündür. Məsələn, A. və X. rayonlarında yerləşən məktəblərin şagirdlərinin eyni hüquqları eyni şəkildə pozulmuşdur. Bu, prosessual iddiaçıların eyni predmet üzrə məhkəməyə iddia vermələrinə əsas ola bilər. Lakin bu zaman həmçinin məhkəmə qərarının preyudisiallığı müddəasını nəzərə almaq lazımdır. Qeyd edək ki, Azərbaycan Respublikasının 20 aprel 2012-ci il tarixli 329-IVQD nömrəli Qanunu ilə MPM-nin ləğv edilmiş 304.4-cü maddəsinə əsasən, normativ xarakterli aktın bütövlükdə və ya qismən qüvvədən düşmüş hesab edilməsi barədə məhkəmənin qətnaməsi normativ xarakterli aktı qəbul etmiş müvafiq icra hakimiyyəti orqanı, sair dövlət orqanı və ya vəzifəli şəxs üçün, habelə vətəndaş və ya dairəsi qeyri-müəyyən olan və mübahisə olunan normativ aktın qüvvəsi hüquq və vəzifələrinə şamil olunan şəxslər üçün məcburidir. Həmin qətnamə preyudisial qüvvəyə malikdir və digər şəxslər tərəfindən normativ xarakterli aktın qanuniliyi aktın yalnız məhkəmə yoxlamasının obyekti olmayan hissəsi üzrə yenidən mübahisə edilə bilər. Hazırda respublikamızın MPM-də preyudisiya ilə bağlı hər hansı bir norma yoxdur. Bu baxımdan MPM-də qeyri-müəyyən şəxslərin dairəsinə münasibətdə cavabdeh tərəfindən yol verilən əməllərin hüquqazidd sayılması və bu fəaliyyətin dayandırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarının cavabdehin əməlindən doğan mülki-hüquqi nəticənin baş verməsi ilə bağlı olan hüquqlarının müdafiə olunmasından ötrü qaldırılmış digər mülki işlərə baxan məhkəmələr üçün məcburi olmasını nəzərdə tutan müddəanın təsbit olunmasını təklif edirik.

## Biblioqrafiya

1. "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.3-cü maddəsinin şərh edilməsinə dair" 2016-cı il 23 fevral tarixli Qərarı. [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/32542 "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142-ci maddəsinin şərh edilməsinə dair" 2020-ci il 8 yanvar tarixli Qərarı. [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/44179 (müraciət tarixi: 12.10.2021)

2. Аболонин Г.О. Групповые иски. - М.: Норма, 2001. - 256 с.

3. Артамонова Е.М. Защита прав неопределенного круга лиц // Законность. 2003, № 8. - С. 3-6.

4. Артамонова Е.М. Защита прокурором прав и законных интересов неопределенного круга лиц в гражданском судопроизводстве: дис. … канд. юрид. наук. М., 2004. 198 с.

5. Батаева Н.С. Судебная защита прав и интересов неопределенного круга лиц: автореф. дис. … канд. юрид. наук. М., 1999, 32 с.

6. Бухтоярова О.А. «Неопределенный круг лиц» в гражданском судопроизводстве // Вестник НГУ. - Новосибирск: Изд-во НГУ. 2007. Т. 3. Вып. 1. - С. 93-96.

7. Бюллетень Верховного Суда РФ. 2004. № 11.

8. Жуйков В. ГПК РФ: порядок введения в действие // Российская юстиция. 2003. № 2. - С. 2–6.

9. Крайнова А.В. Проблемы защиты неопределенного круга лиц в гражданском процессе // Вестник Пензенского государственного университета № 2 (17), 2017. - С. 46-51.

10. Осокина Г.Л. Гражданский процесс. Общая часть: учебник. 3-е изд., перераб. - М.: Норма: ИНФРА-М, 2013. – 704 с.

11. Полухова Е. Защита прав и законных интересов неопределенного круга лиц в крупных объединениях предприятий // Законность. 2005. № 7. - С. 28-30.

12. Постановление Пленума Верховного Суда РФ от 28.06.2012 № 17 "О рассмотрении судами гражданских дел по спорам о защите прав потребителей" [Электронный ресурс]. Режим доступа: http://www.consultant.ru/document/cons_doc _LAW_131885/ (дата обращения: 16.10.2021)

**Abiyeva N.M.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.65.12-23**
**UDC: 347**

## Some matters of the doctrinal understanding of indeterminate individuals

**Abstract**: Although the term "indeterminate individuals" is not a legal concept, various attempts have been made in the theory of law to define this term. The protection of the rights of indeterminate individuals is usually understood as the protection of the common interests of individuals, legal entities and their groups or associations. In determining the exact number of group members, the conditions of the judicial protection mechanisms are changing.

The following three points are of fundamental importance for the protection of an indeterminate circle of individuals: 1) the object of protection is public or state interests; 2) even if the scope of the declared object of protection is uncertain, the composition of the defendants in the claim remains the same; 3) if the court satisfies these claims, persons representing a circle of indeterminate individuals have the opportunity to receive appropriate compensation payments by filing an individual claim.

♦ **Abiyeva Narmin Mirhasan -** Dissertator of the Faculty of Law of Baku State University (Azerbaijan). E-mail: mahabbat_d.h.t@mail.ru

The task of judicial consideration of cases related to the protection of the rights of an indeterminate circle of individuals is not to protect a specific person or enterprise (organization), but to protect the rights or legitimate interests of a group of persons who are close by their legal nature.

In practice, this manifests itself in the form of requirements for answers to questions arising in connection with environmental protection, the promotion of a product or service among consumers, the provision of information about the sanitary and epidemiological situation in a particular territory, etc.

**Keywords**: indeterminate individuals; doctrinal concept; protection of rights; court; prosecutor; plaintiff; prejudice.

## References

1. Resolution “On the interpretation of Article 82.3 of the Civil Procedure Code of the Republic of Azerbaijan” dated on February 23, 2016. Available at: http://www.e-qanun.az/framework/32542; Resolution “On interpretation of Article 142 of the Code of Criminal Procedure of the Republic of Azerbaijan” dated on January 8, 2020. Available at: http://www.e-qanun.az/framework/44179 (accessed: 12.10.2021) (in Azerbaijani).

2. Abolonin G.O. *Gruppovye iski* [Group claims]. Moscow, Norma Publ., 2001, 256 p.

3. Artamonova Ye.M. *Zaschita prav neopredelennogo kruga lits* [Protection of rights of indeterminate circle of individuals]. *Zakonnost’/Legitimacy*, 2003. No. 8, pp. 3-6.

4. Artamonova Ye.M. *Zaschita prokurorom prav i zakonnykh interesov neopredelennogo kruga lits v grazhdanskom sudoproizvodstve*. Dis...kand. yurid. nauk [Protection by prosecutor of rights and legal interests of indeterminate circle of individuals in civil proceedings. PhD in Law Diss.]. Moscow, 2004, 198 p.

5. Bataeva N.S. *Sudebnaya zaschita prav i interesov neopredelennogo kruga lits*. Avtoref. dis. kand. yurid. nauk [Court protection of rights and legal interests of indeterminate circle of individuals. PhD in Law Diss. Abstract]. Moscow, 1999, 32 p.

6. Bukhtoyarova O.A. *“Neopredelennyi krug lits” v grazhdanskom sudoproizvodstve* [‘Indeterminate circle of individuals’ in civil proceedings]. *Vestnik NGU/Herald of NSU*. Novosibirsk, NGU Publ., 2007. Vol. 3. Issue 1. Pp. 93-96.

7. *Byulleten’ Verkhovnogo Suda RF* [Bulletin of the Supreme Court of the Russian Federation]. 2004. No. 11.

8. Zhuykov V. *GPK RF: poryadok vvedeniya v deyistvie* [Civil Procedure Code of Russian Federation: implementation procedure]. *Rossiykaya yustitsia-Russian Justice*. 2003. No. 2, pp. 2-6.

9. Krainova A.V. *Problemy zaschity neopredelennogo kruga lits v grazhdanskom protsesse* [Problems of protection of indeterminate cicrle of persons in civil process]. *Vestnik Penzenskogo gosudarstvennogo universiteta-Herald of Penza State University*. 2017. No. 2(17), pp. 46-51.

10. Osokina G.L. *Grazhdanskyi protsess. Obschaya chast’*: uchebnik. 3-e izd., pererab. [Civil prosess. General Part. Textbook, 3 ed., rev.]. Moscow, Norma: INFRA-M Publ., 2013, 704 p.

11. Polukhova Ye. *Zaschita prav i zakonnykh interesov neopredelennogo kruga lits v krupnykh ob’edineniyakh predpriyatiyi* [Protection of rights and legal interests of indeterminate circle of individuals in big enterprises]. *Zakonnost’-Legitimacy*. 2005. No. 7, pp. 28-30.

12. *Postanovlenie Plenuma Verkhovnogo Suda RF ot 28.06.2012 g. No. 17 "O rassmotrenii sudami grazhdanskikh del po sporam o zaschite prav potrebiteleyi*" [Resolution of the Plenum of Supreme Court of Russian Federation dated on 28.06.2012 No. 17 "On consideration by courts of civil cases on disputes about protection of the consumers' rights"]. Available at: http://www.consultant.ru/document/cons_doc_LAW_131885/ (accessed: 16.10.2021)

**Абыева Н.М.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.65.12-23**
**УДК: 347**

## Некоторые вопросы доктринального понимания термина неопределенных лиц

**Аннотация:** Хотя термин «неопределенные лица» не является юридическим понятием, в теории права предпринимались попытки дать определение этому термину. Защита прав неопределенных лиц обычно понимается как защита общих интересов физических, юридических лиц и их групп или объединений. При определении точного количества участников группы меняются условия механизмов судебной защиты.

Следующие три пункта имеют принципиальное значение для защиты неопределенного круга лиц: 1) объектом защиты являются общественные или государственные интересы; 2) даже если объем заявленного объекта защиты неопределен, состав ответчика по иску остается прежним; 3) в случае удовлетворения судом этих требований лица, представляющие круг неопределенных лиц, имеют возможность получить соответствующие компенсационные выплаты путем подачи индивидуального иска.

В отношении защиты прав круга неопределенных лиц также следует учитывать следующие факторы:

1) предмет спора (по характеру деятельности нарушение прав и законных интересов может быть совершено обеими формами противоправного действия, то есть как незаконным действием, так и незаконным бездействием);

2) способ защиты права (возможны такие виды исков, как иски о прекращении противоправной деятельности, признании права или его нарушении, определении обязательства и т. д.);

3) круг защищаемых лиц (наряду с потребителями могут быть защищены права других лиц, например пенсионеров, сотрудников предприятия и т. д.).

Задачей судебного рассмотрения дел, связанных с защитой прав неопределенного круга лиц, является защита не конкретного лица или предприятия (организации), а защита прав или законных интересов группы лиц близких по своей правовой природе.

♦ **Абыева Нармин Миргасан кызы** - диссертант юридического факультета Бакинского Государственного Университета (Азербайджан). E-mail: mahabbat_d.h.t@mail.ru

На практике это проявляется в виде требований ответов на вопросы, возникающих в связи с охраной окружающей среды, продвижением товара или услуги среди потребителей, предоставлением информации о санитарно-эпидемиологической ситуации на той или иной территории и т.д.

**Ключевые слова**: неопределенные лица; доктринальная концепция; защита прав; суд; прокурор; истец; преюдиция.

**Библиография**

1. Постановление «О толковании статьи 82.3 Гражданского процессуального кодекса Азербайджанской Республики» от 23 февраля 2016 года. [Электроный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/32542; Постановление «О толковании статьи 142 Уголовно-процессуального кодекса Азербайджанской Республики» от 8 января 2020 года. [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/44179 (дата обращения: 12.10.2021) (на азерб. яз.).

2. Аболонин Г.О. Групповые иски. - М.: Норма, 2001. - 256 с.

3. Артамонова Е.М. Защита прав неопределенного круга лиц // Законность. 2003, № 8. - С. 3-6.

4. Артамонова Е.М. Защита прокурором прав и законных интересов неопределенного круга лиц в гражданском судопроизводстве: дис. … канд. юрид. наук. М., 2004. 198 с.

5. Батаева Н.С. Судебная защита прав и интересов неопределенного круга лиц: автореф. дис. … канд. юрид. наук. М., 1999, 32 с.

6. Бухтоярова О.А. «Неопределенный круг лиц» в гражданском судопроизводстве // Вестник НГУ. - Новосибирск: Изд-во НГУ. 2007. Т. 3. Вып. 1. - С. 93-96.

7. Бюллетень Верховного Суда РФ. 2004. № 11.

8. Жуйков В. ГПК РФ: порядок введения в действие // Российская юстиция. 2003. № 2. - С. 2-6.

9. Крайнова А.В. Проблемы защиты неопределенного круга лиц в гражданском процессе // Вестник Пензенского государственного университета № 2 (17), 2017. - С. 46-51.

10. Осокина Г.Л. Гражданский процесс. Общая часть: учебник. 3-е изд., перераб. - М.: Норма: ИНФРА-М, 2013. – 704 с.

11. Полухова Е. Защита прав и законных интересов неопределенного круга лиц в крупных объединениях предприятий // Законность. 2005. № 7. - С. 28-30.

12. Постановление Пленума Верховного Суда РФ от 28.06.2012 N 17 “О рассмотрении судами гражданских дел по спорам о защите прав потребителей” [Электронный ресурс]. Режим доступа: http://www.consultant.ru/document/cons_doc_LAW_131885/ (дата обращения: 16.10.2021)